Azadlıq Çırağı

azadliqciragi.org

# Bazar iqtisadiyyatı və maddi sərvətlərin bölüşdürülməsi

(1940)

## Lüdviq M. Laxman,

*Kapital, Ehtimallar və Bazar Prosesi*

*İstifadə edilən nəşrlər:*
*Kapital, Ehtimallar və Bazar Prosesi: Bazar iqtisadiyyatı nəzəriyyəsinə dair esselər, giriş sözü ilə Uolter E. Qrinder (Kanzas şəhəri, Şid Endrüs və MakMil, 1977).*

Müəllif: Lüdviq M. Laxman
Redaktor: Uolter E. Qirnder

**Bazar iqtisadiyyatı və maddi sərvətlərin bölüşdürülməsi**

Bu gün azad dünyanın hər yerində bazar iqtisadiyyatı opponentlərinin tutarlı dəlillərə malik olmamasının şahidi oluruq. Son vaxtlar "mərkəzdən planlaşdırma halı" öz əvvəlki şöhrətini itirmişdir. Biz bununla əlaqədar xeyli təcrübə ilə qarşılaşmışıq. Son qirx ilin faktları çox ibrətamizdir.
Professor Mizesin hələ otuz il əvvəl qeyd etdiyi "siyasi hakimiyyətin hər bir müdaxiləsi özü-özülüyündə bu müdaxilənin labüd iqtisadi təsirini aradan qaldırmaq üçün digər müdaxilələri də zəruri edir" fikrinə kim şübhə edə bilər? Kim inkar edə bilər ki, inzibati amirlik iqtisadiyyatın fəaliyyət göstərməsi üçün inflyasiya atmosferi tələb edir və kim bu gün "idarə edilən inflyasiyanın" fəlakətli effektindən xəbərdar deyil? Baxmayaraq ki, bəzi iqtisadçılar hamımızın yaxşı tanıdığı daimi inflyasiyanı təsvir etmək üçün mədhedici "dünyəvi inflyasiya" terminini kəşf etmişlər, fəqət çətin ki, bununla kimisə aldada bilsinlər. Hətta ən əverişsiz şərtlər altında "inzibati amirlik sistemi ilə idarə edilən" xaos vəziyyətində belə bazar iqtisadiyyatının qayda yaradacağını nümayiş etdirmək üçün alman nümunəsini göstərməyə ehtiyac yoxdur. Könüllü əməkdaşlıq və biliklərin universal mübadiləsi üzərində qurulmuş iqtisadi təşkilat forması hər hansı iyerarxik strukturdan daha üstündür və bu zaman sonuncuda əmr verənlərin ixtisaslarının rasional testə məruz qalması heç bir əhəmiyyət kəsb etmir. Səbəb və təcrübədən öyrənməyə qadir olanlar bunu əvvəldən bilirlər, amma qadir olmayanlar çətin ki, indi də bunu öyrənə bilsinlər.

Meri Şenholzdan nəşr edilmişdir, *Azadlıq və Azad müəssisə haqqında: Lüdviq fon Mayzesin şərəfinə nəşr edilmiş esselər (Nyu-York, D. Van Nostrand,* 1956*).*

Bu vəziyyətlə qarşılaşan bazar iqtisadiyyatının opponentləri öz prinsiplərini dəyişərək indi də onun iqtisadi əsasları əvəzinə "sosial" əsaslarına etiraz edirlər. Onlar bazar iqtisadiyyatını qeyri-effektiv olmaqdan çox ədalətsiz olmasına görə ittiham edirlər. İndi onlar maddi sərvətlərə malik olmanın "təhrif edici effektlərini" əsas gətirərək iddia edirlər ki, "bazar plebisiti bir adamın bir neçə yerdə səs verməsi" əsasında idarə olunur. Onlar göstərirlər ki, maddi sərvətlərin bölüşdürülməsi istehsala və gəlirlərin bölüşdürülməsinə təsir edir, belə ki, sərvət sahibləri nəinki sosial gəlirlərdən ədalətsiz pay alırlar, onlar həm də ictimai məhsulun strukturuna təsir edirlər: Dəbdəbə çox, ehtiyaclar isə azdır. Bundan əlavə, əmanətlərin çox hissəsi belə sərvət sahiblərinin əlində toplandığından, onlar kapital yığımının dərəcəsini müəyyənləşdirir və beləliklə də iqtisadi inkişafa nəzarət edirlər.

Bu opponentlərin bəziləri maddi sərvətlərin bölüşdürülməsinin iqtisadi faktorların oyununun toplu nəticəsi olması fikrini inkar etməsələr belə, iddia edirlər ki, bu toplama ele bir yolla gedir ki, bugünü keçmişin əsirinə, indinin əsassız keçmiş amilinə çevirir. Bu günün gəlir bölgüsü bu günün maddi sərvətlərinin bölüşdürülməsi əsasında formalaşır. Baxmayaraq ki, bugünkü sərvət qismən olaraq sırağagünki sərvətlərin bölüşdürülməsinin təsirini əks etdirən prosesslər nəticəsində dünən toplanıb. Başlıca olaraq bazar iqtisadiyyatı opponentlərinin bu arqumenti, hətta ən mütərəqqi cəmiyyətlərdə belə, bizə məlum olduğu kimi, sahibkarların çoxunun öz sərvətlərinə görə minnətdar olduğu varislik institutuna əsaslanır.

Bu arqument çoxluq tərəfindən, hətta başlıca olaraq iqtisadi azadlıq tərəfdarları tərəfindən belə dəstəklənir. Belə adamlar inanırlar ki, məsələn, varislikdən tutulan vergi tətbiq etməklə "maddi sərvətlərin yenidən bölüşdürülməsi" cəmiyyət tərəfindən arzuolunan vəziyyətə gəlir və heç bir əlverişsiz iqtisadi nəticələrə səbəb olmazdı. Əksinə, belə tədbirlər indini keçmişin "ölü əli"ndən xilas etməyə yönəldiyindən, onlar mövcud gəlirləri indiki ehtiyaclar əsasında tənzimləməyə də kömək edə bilərdi. Maddi sərvətlərin bölüşdürülməsi bazarın başlanğıc faktıdır və bazar mexanizminə müdaxilə etmədən faktları dəyişdirməklə nəticələri dəyişdirə bilərik! Buradan belə çıxır ki, yalnız davamlı olaraq mövcud sərvətlərin yenidən bölüşdürülməsi siyasəti ilə müşayət olunduqda, bazar prosesi "cəmiyyəti qane edə biləcək" nəticələr eldə edə bilər.

Bu rəyə, dediyimiz kimi, bir çox insanlar, hətta bazar iqtisadiyyatının inzibati amirlik sistemi altında fəaliyyət göstərən iqtisadiyyat üzərində üstünlüyünü və müdaxiləçiliyin fəsadlarını anlayan, lakin bazar iqtisadıyyatının sosial nəticələri kimi qəbul etdikləri amilləri xoşlamayan iqtisadçılar da şərikdir. Onlar bazar iqtisadiyyatını ancaq o zaman qəbul edirlər ki, onun fəaliyyəti maddi sərvətlərin yenidən bölüşdürülməsi siyasəti ilə müşayət edilmiş olsun.

Bu məqalə həmin rəyin əsaslarının tənqidinə həsr olunmuşdur.

Hər şeydən əvvəl bütün mübahisə "göstərici" (eng. "datum") termininin qeyri-müəyyən mənasının doğurduğu dolaşıqlıqdan yaranır. Ümumi mənada, həmçinin bir çox elmlərdə, o cümlədən, statistikada "göstərici" dedikdə zamanın müəyyən anında bizə vəziyyətin müşahidəçiləri kimi "verilmiş" faktdır. Bu mənada hər kəsə bəllidir ki, maddi sərvətlərin bölgüsü üsulu hər hansı zaman kəsiyində "göstəricidir". Sadəcə qeyri-elmi mənada bu o an mövcud olur ki, digər usullar həmin an mövcud olmasın. Lakin tarazlıq nəzəriyyələrində iqtisadi terminlər öz məna sərhədlərini genişləndirdiyi bir vaxtda "göstərici" ifadəsi ikinci və çox fərqli məna kəsb etməyə başlamışdır: Burada "göstərici" tarazlığın zəruri şərti və müstəqil dəyişən, cəm halında isə "göstəricilər" (eng. "data") elə bir zəruri və kifayət şərtlərin cəmini ifadə edir ki, biz onları bildiyimiz təqdirdə heç bir çətinlik çəkmədən qiymət və "göstərici" bərabərliyini ala bilərik. Bu ikinci mənada maddi sərvətlərin bölgüsü, bütün digər "göstəricilərlə" birlikdə elə bir DETERMINANT olacaq ki, o təkcə alınıb-satılan müxtəlif xidmətlərin və malların qiymət və kəmiyyətlərinə aid olmasın.

Bu məqalənin əsas məqsədi də maddi sərvətlərin bölüşdürülməsinin "göstərici" termininin ikinci mənaya aid olmamasını sübut etməkdir. Bazar prosesinin "müstəqil dəyişəni" olmaqdan çox uzaq olaraq, o, əksinə olaraq, bazar faktorlarının təsirindən daim modifikasiyaya məruz qalır. Deməyə ehtiyac yoxdur ki, hər bir anda onun bazar prosesləri üçün gələcəyə yol açan faktorların əhatəsində olması fikri təkzib edilməsə də, bu cür bölüşdürmə üsulunun hər hansı daimi təsirə malik olması fikri də qəbul edilmir. Sərvətlərin həmişə müəyyən bir qaydada bölüşdürülməsinə baxmayaraq, bu bölüşdürmənin üsulları daim dəyişir.

Əgər bölgü üsulu uzun zaman kəsiyində eyni qalsaydı, məsələn fərdi sərvətlər yalnız varislik yolu ilə keçsəydi, bu cür dəyişməz üsul daimi iqtisadi faktor hesab oluna bilərdi. Əslində isə belə deyil. Maddi sərvətlərin bölüşdürülməsi bazar faktorlarının təsiri nəticəsində subyekt kimi deyil, obyekt kimi formalaşır və onun üsulu bu gün nə olursa-olsun, o tezliklə olmayan keçmişə çevriləcək.

Buna görə maddi sərvətlərin bölüşdürülməsinin tarazlığın göstəriciləri arasında yeri yoxdur. Verimiş zaman kəsiyində böyük iqtisadi və ictimai marağa səbəb olan məsələ maddi sərvətlərin bölgüsü üsulu deyil, əslində onun vaxt ərzində dəyişmə üsuludur. Belə dəyişmə, görəcəyik ki, öz həqiqi yerini elə bir problemli "yolda" baş verən hadisələr içərisində tapır ki, bu yol reallıqda nadir hallarda tarazlığa apara bilər. Bu tipik "dinamik" bir fenomendir. Maraqlı faktdır ki,

dinamik elmlərin təlimi və təşviqi ehtiyacları haqda çox danışıldığı bir vaxtda bu, az məna kəsb etməlidir.

Sahibkarlıq konkret maddi obyektlərə əsaslanan hüquqi anlayışdır. Maddi sərvətlər məhdud ehtiyatlara istinad edən iqtisadi anlayışdır. Bütün qiymətli resurslar özündə əks etdirən və ya ehtiva edən maddi obyektlərdir. Lakin bütün maddi obyektlərin heç də hamısı resurs sayılmır: Xaraba evlər, metal qırıntıları və qalaqları aydın misaldır. Belə ki, digər bu cür predmetlər kimi bunları da sahibkar onları qəbul etmək istəyən adam tapdığı zaman, böyük məmnuniyyətlə verərdi. Bundan əlavə, bu gün resurs hesab olunan hər hansı bir şey sabah resurs olmaq keyfiyyətini itirə və yaxud əksinə bu gün dəyərsiz sayılan obyekt sabah dəyərli hesab oluna bilər. Buna görə də maddi obyektlərin resurs statusu həmişə problematikdir və bir az da öngörmədən asılıdır. Obyekt o vaxt sərvət sayılır ki, o, gəlir axınının mənbəyi olsun. Obyektin sahibi üçün dəyəri onun istənilən anda həqiqi və ya potensial olaraq dəyər yaratmaq qabiliyyətini əks etdirir. Bu da öz növbəsində obyektin necə istifadə olunmasından asılı olacaq. Obyektlərə sadəcə sahiblik etmək heç də həmişə sərvət yaratmır: sərvət onların müvəffəqiyyətlə işlədilməsi nəticəsində olaraq yaranır. Resurslara sahiblik etmə deyil, məhz onlardan istifadə gəlir və sərvətin mənbəyidir. Nyu-Yorkda yerləşən dondurma fabriki sahibi üçün maddi sərvət ola bilər; həmin dondurma fabrikinin Qrenlandiyada yerləşməsi çətin ki, onu resursa çevirsin.

Gözlənilməz dəyişikliklər dünyasında maddi sərvətlərin qorunması problematikdir və bir sözlə ifadə edilərsə, mümkünsüzdür. Bir nəsildən digər nəslə irsən keçəcək maddi sərvətləri olduğu miqarda saxlamaq üçün ailə elə resurslara malik olmalıdır ki, bu cür resurslar daimi xalis gəlir axını yaratsınlar; yəni izafi dəyərin elə bir axınını ki, bu həm xidmətlərdən, həm də əlavə olaraq mövcud resursların dəyərindən artıq olsun. Belə görünür ki, bu ancaq *ya* sabit dünyada, yəni elə bir dünyada ki dünən də, sabah da bu günki kimidir və beləliklə gündən-günə, ildən-ilə həmin gəlirlər həmin sahiblərin yaxud onların varislərinin var-dövlətini artıracaq; *ya da* bütün resurs sahiblərinin mükəmməl öngörmə qabiliyyətinə malik olması zaman mümkün ola bilər. Hər iki hal reallıqdan uzaq olduğu üçün biz onların hər ikisini nəzərə almaya bilərik. Onda bəs gözlənilməz dəyişikliklər dünyasında həqiqətən nə baş verir?

Bütün maddi sərvətlər kapital aktivlərdən ibarətdir ki, onlar bu və ya digər yolla istehsalın maddi resurslarını, dəyərli məhsulun mənbələrini ehtiva edir. Bütün məhsullar belə resursların köməyi ilə insan əməyi ilə istehsal olunur. Bu məqsədlə də resurslar müəyyən əlaqədə işlədilməlidir; bir-birini tamamlama resurslardan istifadənin əsas mahiyyətidir. Belə tamamlamanın üsulları istehsalat planlarını hazırlayan, təşəbbüs göstərən və onları həyata keçirən sahibkarlara heç də hazır verilmir. Həqiqətdə *A* istehsal funksiyası adlı anlayış yoxdur. Əksinə, sahibkarların vəzifəsi bu günkü şərtlər daxilində məhsulun maksimum izafi dəyərinin maya dəyərindən üstün olması üçün daim dəyişən dünyada resursların uyğun kombinasiyanı tapmaqdan və sabahın mümkün şərtləri altında məhsul dəyərinin, əlavə maya dəyərinin və texnologiyanın dəyişəcəyi zaman həmin nəticəni əldə etmək üçün nə etməli olduğunu düşünməkdən ibarətdir.

Əgər bütün əsas resurslar sonsuz dərəcədə dəyişkən olsaydı, onda sahibkarlığın problemi ancaq xarici şərtlərin dəyişməsini, resursların kombinasıyasını bu dəyişikliklər nəticəsində gəlirli olan istifadə üsullarının təkrarlanmasına çevirməklə, izləmək olardı. Lakin bir qayda olaraq resursların qeyri-sabitliyi məhduddur; hər biri bir neçə istifadə üçün spesifikdir, yararlıdır.[1] Bununla belə dəyişikliyi tənzimləmə ehtiyacı resurs qruplarının tərkibində dəyişikliyin edilməsi, yəni “kapitalın yenidən qruplaşdırılması” ehtiyacını yaradır. Lakin tamamlama üsulundakı hər hansı dəyişikik kapital yığımlarının və itkilərin artımı ilə komponent kimi çıxış edən resursların dəyərinə təsir edəcək. Sahibkarlar daha gəlirli tətbiqə yönəldəcəkləri resursların təqdim edilməsi üçün yüksək, daha az gəlirli sitifadəyə yönəldəcəkləri resurslarla təchiz etmə üçün isə aşağı məbləğ təklif edəcəklər. Məhdud hallarda bir vaxtlar gəlirli kombinasiyanın komponenti olmuş (indiki yaxud potensial gələcəkdə), lakin indi işə yaramayan resurs isə tamamilə resusr

xarakterini itirəcək. Lakin hətta ən az radikal hallarda belə aktivlərdən əldə edilən kapital yığımları və itkilər gözlənilməz dəyişikliklər dünyasının qaçılmaz yol yoldaşıdır.

Buradan belə görünür ki, bazar fəaliyyəti bərabərləşdirmə prosesidir. Bazar iqtisadiyyatında sərvətlərin yenidən bölüşdürülməsi prosesi, müasir siyasətçilərin yaratdıqları, müqayisəli əhəmiyyətsizliyə çevirdikləri oxşar kənar proseslərdən əvvəl baş verir. Bazar onu saxlamağı bacaranlara sərvət verir, lakin siyasətçilər onu seçicilərə verdikdə onlar adəti üzrə bunu edə bilmirlər.

Sərvətlərin yenidən bölüşdürülməsi heç də təhlükələrin toplanması ilə diqtə olunmur. Bu prosesdə iştirak edənlər heç də şans oyunu deyil, bacarıq oyunu oynayırlar. Bu proses, digər real dinamik proseslər kimi, biliklərin beyindən-beyinə keçməsini əks etdirir. Bu ancaq ona görə mümkün olur ki, bəzi adamlar digərlərinin hələ əldə etmədiyi biliyə mənsubdurlar, çünki dəyişiklik və onun təsiri haqqında biliklər cəmiyyətdə tədricən və qeyri-bərabər şəkildə yayılır.

Bu prosesdə o insan müvəffəqiyyət qazanır ki, o hamıdan əvvəl dərk edir ki, bu gün yeni olan, müəyyən *A* qiymətinə alınan və ya mövcud olan resurs sabah istehsalat kombinasiyasının bir hissəsini təşkil etməklə *A'* dəyərində olacaq. Resursları bir istifadədən digərinə çevirmək ehtiyacından və ya şansında yaranan bu cür gəlirlər və itkilər dəyişən dünyada sərvət anlayışının iqtisadi əsasını təşkil edir və yenidən bölüşdürmə prosesinin əsas lokomotivinə çevirir.

Bu prosesdə eyni bir adamın, əgər o, rəhbər vəzifədə deyilsə, mövcud və potensial resursların mümkün yeni tətbiqi barəsindəki proqnozlarının hər zaman doğru olacağı ehtimalı azdır. Belə bir vəziyyətdə onun varisləri, əgər onlar da rəhbər vəzifədə olmasalar, çətin ki həmin müvəffəqiyyəti təkrar etsinlər. Gözlənilməz dəyişikliklər dünyasında kapital itkiləri kapital gəlirlər kimi qaçılmazdır. Kapital sahibləri ilə davamlı resursların spesifik təbiəti arasındakı rəqabət, hətta onların "çoxtərəfli spesifikliyi" malik olmasına baxmayaraq, qazancın arxasınca itkilərin gəlməsini və ya əks prosesi doğurur.

Bu iqtisadi faktlar müəyyən sosial nəticələr yaradır. Bazar iqtisadiyyatının tənqidçiləri öz ittihamlarını "sosial" zəminə yönəltdiklərindən, bazar prosesinin həqiqi sosial nəticələrini burada izah etmək münasib olmazdı. Biz bu haqda danışarkən onun bərabərləşdirici proses olduğunu qeyd etmişdik. Ən münasib variant olaraq biz indi bu nəticələri Paretonun dediyi kimi "elitaların sirkulyasiyası"na bir misal kimi təsvir edə bilərik. Sərvətin uzun zaman bir əldə qalma ehtimalı azdır. O, əldən-ələ keçir və nəzərə alınmamış dəyişiklik bu və ya digər spesifik resursa dəyər bəxş edir və bununla da kapital gəlirləri və itkiləri yaradır. Maddi sərvət sahibləri Şumpetinin dediyi kimi, mehmanxana qonaqlarına və ya qatarların sərnişinlərinə bənzəyirlər. Onlar həmişə buradadır, lakin heç vaxt eyni adamlar deyildirlər.

Etiraz edə bilərlər ki, gətirdiyimiz arqumentlər cəmiyyətin kiçik bir seqmentinə aiddir və elitaların sirkulyasiyası sosial ədalətsizliyi aradan qaldırmır. Belə bir sirkulyasiya var-dövlət sahibləri arasında ola bilər, bəs cəmiyyətin qalan hissəsi? Bu oyunda iştirak edə bilməyənlərin qalib gəlməyi bir yana qalsın, bəs sərvəti olmayanların hansı şansı var? Bu etiraz menecer və sahibkarların bazar prosesində oynadığı o rolu hesaba almır ki, biz ona tezliklə qayıdacağıq.

Bazar iqtisadiyyatında, gördüyümüz kimi, bütün maddi sərvətlər mübahisəlidir. Aktivlər nə qədər davamlı təbiətli və spesifik olsalar, onların tətbiq sahələri bir o qədər məhdud və problemlər isə bir o qədər görünəndir. Lakin sərvətin daha çox əmtəə (əsasən kənd təsərrüfati və ya tez xarab olan əmtəə) səhmləri formasında toplanmış az daimi kapitalın olduğu bir cəmiyyətdə, davamlı istehlak mallarının (evlər və mebel istisna olmaqla) mövcud olmadığı bir cəmiyyətdə problem çox nəzərə çarpmır. Bu vəziyyət məhz klassik iqtisadçıların yaşadıqları cəmiyyətdə olmuş və onlar da təbii olaraq bu cəmiyyətin spesifik xüsusiyyətlərini götürmüşlər.

Öz dövrlərinin şərtlərini nəzərə almaqla bütün kapitalı faktiki olaraq həmcins və tamamilə elastik hesab edən və onu yeganə spesifik və təkrar-istehsal olunmayan resurs olan torpaqla qarşı-qarşıya qoyan həmin klassiklərə bəraət qazandırmaq olar. Lakin bizim zamanımızda belə dixotomiyaya az və ya heç cür bəraət qazandırmaq olmaz. Kapital nə qədər davamlı və dayanıqlı olarsa, belə kapital resurslarından, tükənənədək, öz ilkin təyinatından başqa digər məqsədlər üçün istifadə ediləcəyə ehtimalı o qədər böyük olur. Bu o deməkdir ki, müasir bazar iqtisadiyyatında daimi gəlir mənbəyi yoxdur. Davamlılıq və məhdud qeyri-sabitlik bunu mümükünsüz edir.

Soruşula bilər ki, arqumentlərimizi təqdim edərkən birinə aid olan funksiyaları digərinin ayağına yazmaqla biz kapital sahibləri ilə sahibkarları qarışıq salmamışıqmı. Mövcud resurslardan istifadə qərarı, həmçinin yeni əsas resursların konkret formasını müəyyənləşdirən qərar məhz investisiya qərarı, tipik sahibkar tapşırığı deyilmi? Məhz sahibkar əsas məhsulları yenidən qruplaşdırmalı və yenidən yerləşdirilməli deyilmi? Biz kapital sahiblərindən sahibkarın iqtisadi funksiyalarını yerinə yetirməsini tələb etmirik ki?

Bizi narahat edən əsasən başqasının funksiyalarını tələb etmək deyil. Bizi narahat edən gözlənilməz dəyişikliklərin aktivlərin dəyərinə və onun maddi sərvətlərin bölüşdürülməsinə olan təsiridir. Belə dəyiçiklərin təsiri onların haradan yaranmasından asılı olmayaraq sərvət sahiblərinin üzərinə düşəcək. Əgər kapitalistlə sahibkar arasında fərqi müəyyənləşdirmək həmişə asan olsaydı, belə bir iddia irəli sürülə bilərdi ki, maddi sərvətlərin davamlı olaraq yenidən bölüşdürülməsi sahibkar fəaliyyətinin nəticəsidir ki, bu prosesdə kapital sahibləri sadəcə passiv rol oynayır. Lakin nə prosesin baş verməsi, nə bazar tərəfindən sərvətələrin yenidən bölüşdürülməsi, nə də biliklərin sahibkar fəaliyyətinin bir mərkəzindən digər mərkəzinə ötürülməsi ilə təşviq edilən bazar prosesləri şübhə doğura bilər. Kapital sahibləri ilə sahibkarları aydın fərqləndirmək mümkün olan yerdə bu bir həqiqətdir ki, maddi sərvət sahibləri özləri bu prosesdə iştirak etmir, passivcəsinə onun nəticələrini qəbul edirlər.

Lakin elə hallar mövcuddur ki, bu cür aydın fərqləndirməni aparmaq mümkün olmur. Müasir dünyada maddi sərvətlər adətən qiymətli kağızlar formasını alır. Sərvət sahibi adətən səhmdar olur. Səhmdar sahibkardırmı? Professor Nayt bunun belə olduğunu, lakin Valter Rathenaodan[2] tutmuş cənab Börnhamadək olan müəlliflər belə olmadığını deyirlər. Cavab əlbəttə, sahibkar termininin necə müəyyənləşdirilməsindən gedir. Əgər biz onu özü ilə qeyri-müəyyənliyi daşıyan bir şəxs kimi müəyyənləşdirsək, aydın olar ki, səhmdar sahibkardır. Lakin son illər sahibkarı planlaşdırıcı və qərar qəbul edən şəxs kimi müəyyənləşdirmək tendensiyası artıb. Əgər belədirsə, direktor və menecerlər sahibkar, lakin səhmdarlar, belə görünür ki, sahibkar olmayacaq.

Lakin qərar çıxarmağa tələsməyək. Sahibkarın əsas vəzifələrindən biri kapital resurslarının konkret formasını müəyyənləşdirməkdir, yəni o, hansı binaların tikilməsini, hansı səhmlərin saxlanılmasını müəyyən etməlidir. Əgər kapitalistlə sahibkarın fərqini dəqiq müəyyənləşdiririksə, onda qəbul etməliyik ki, özünün heç bir sərvətinə məalik olmayan "əsl" sahibkar "əsl" kapital sahiblərindən pul və ya başqa formada kapital borc götürür.[3]

Həqiqətən idarəetmənin yuxarı pilləsində duran direktor və menecerlər bütün xüsusiləşdirici qərarları qəbul etməyə qadirdirlərmi? Belə qərarların çoxu iş meneceri və ya nəzarətçilər tərəfindən qəbul edilirmi? Həqiqətən menecer funksiyalarının belə geniş yayıldığı dünyada "sahibkarı" müəyyənləşdirmək mümkündürmü?

Digər bir tərəfdən kapital sahibinin yeni səhmləri A şirkətindən deyil, B şirkətindən alması qərarı da müəyyənləşdirici qərardır. Əslində bu elə mühüm qərardır ki, firma daxilindəki bütün menecer qərarları ondan asılıdır, çünki kapitalsız onlar heç bir şeyi müəyyənləşdirə bilməzlər. Biz dərk etməliyik ki, səhmdar, direktor, menecerlər və s. tərəfindən qəbul edilmiş qərarlar sonda

qarşılıqlı surətdə bir-birindən asılıdırlar və bir zəncirin həlqələridirlər. İdarəetmə pilləsi ilə aşağı düşdükcə bütün müəyyənləşdirici suallar artan konkretlilik dərəcəsinə görə bir-birindən fərqlənirlər. A şirkətindən səhmlər almaq qərarı kapitala emalatxana müdirinin hansı növ alətlər hazırlamaq barədə qərarından nisbətən daha az konkret forma verir. Lakin hər bir halda bu müəyyənləşdirici qərardır və elə bir qərardir ki, emalatxana menecerinin işi üçün maddi bazanı təmin edir. Bu nöqteyi-nəzərdən biz deyə bilərik ki, kapital sahibi "ən yüksək" müəyyənləşdirici qərar qəbul edir.

Kapital sahibi ilə sahibkar arasında fərqi heç də həmişə müəyyənləşdirmək asan olmur. Bu nöqteyi nəzərdən kapital resurslarının kombinasiyasını yaradan və genişləndirən fəal sahibkarlarla bazar amillərinin onaların "sahibkarlıq" fəaliyyətinin müvəffəqiyyətinə təsirini qəbul etməli olan passiv mülkiyyət sahibləri arasındakı fərq çox şişirdilmişdir. Səhmdarlar hər halda bu məsələlərdə tamam müdafiəsiz deyillər. Əgər onlar öz direktorlarını hər hansı addımı atmaqdan çəkindirə bilmirlərsə, onların bir yolu qalır: onlar səhmlərini sata bilərlər!

Bəs istiqraz sahibləri necə? Səhmdarlar gəlirlər əldə edə və itkilərə məruz qala bilərlər; onların sərvətləri açıq-aşkar bazar amillərinin təsirinə məruz qalır. Lakin istiqraz sahibləri ilə vəziyyət tamamilə başqa cürdür. Onlar həmin sərvət sahibləri deyillərmi ki, təsvir etdiyimiz bazar amillərindən və uyğun olaraq yenidən bölüşdürmə prosesindən toxunulmazlıq tələb edə bilsinlər?

Ilk öncə fərq, əlbəttə ki, dərəcə məsələsidir. Elə hallar məlumdur ki, planların iflasa uğraması, rəhbərliyin qeyri-effektivliyi və ya nəzərə alınmamış xarici şərait ucbatından istiqraz sahibləri müəssisəni ələ alıblar və beləliklə də məcburi səhmdara çevriliblər. Doğrudur ki, istiqraz sahiblərinin çoxu sərvət sahibləridir və yuxarıda təsvir etdiyimiz səhnənin, mülkiyyət dəyərinə təsir edəcək dəyişikliklər mənbəyinin bir addımlığındadırlar, lakin bunu hamı üçün dümək düzgün olmazd. Bu mənbədən yaranan xeyli təsirlər istiqraz sahiblərinə çatmamış digərlərinə təsir edir. Şirkət kapitalının "hərəkət mexanizmi" nə qədər yüksək olduqca adi səhmlərin mühafizə örtüyü də o qədər nazik olur və istiqraz sahibləri daha böyük təsirə məruz qalırlar. Buna görə təsvir etdiyimiz bazar amillərinin fəaliyyətindən kənar qalmış (azad şəkildə mövcud olan) sərvət sahiblərini göstərmək üçün istiqraz sahibləri halına istinad etmək çox səhvdir. Sərvət sahibləri bir sinif kimi heç vaxt kənarda qala bilməzlər, lakin onlardan bəziləri digərlərinə nisbətən daha çox təsirə məruz qala bilərlər.

Bundan əlavə, gəlirlər və itkilər doğuran iqtisadi amillərə dair elə iki halı qeyd etmək olar ki, bu hallarda səhmin qoruyucu zirehinin (yəni faiz və inflyasiya dərəcəsi) nə qədər qalın olmasından asılı olmayaraq, istiqraz sahibləri özlərini qoruya bilmirlər. Uzun-müddətli fazi dərəcələrinin artması istiqrazların dəyərinə aşağı salacaq. Qiymətdən düşmənin əks təsir yaradacağına baxmayaraq, səhmdarlar hələ də yüksək mənfəət hesabına itkiləri kompensasiya edəcəklərinə ümid bağlayacaqlar. İnflyasiya sərvəti kreditordan debitora ötürürsə, deflyasiya əks təsir yaradır. Hər iki halda biz tanış olduğumuz maddi sərvətlərin yenidən bölüşdürülməsi nümunələrini görürük. Deyə bilərik ki, sabit uzunmüddətli faiz dərəcəsinin mövcud olması və pulun dəyərində dəyişikliyin olmaması istiqraz sahiblərinin sərvətlərinin gözlənilməz dəyişikliyə reaksiyası onların səhmdarlara münasibətdə tutduqları nisbi pozisiyadan, özləri və təlatüm mərkəzləri arasındakı "iqtisadi məsafədən" o zamana qədər asılı olacaqdır ki, faiz dərəcələri və pulun dəyərində dəyişiklik həmin bu nisbi pozisiyani modifikasiya etsin.

Dövlət istiqraz sahibləri, əlbəttə ki, gözlənilməz dəyişikliklərin hamısından olmasa da bir çox təsirindən azaddırlar. Əmin olmaq üçün onlar heç də qiymət və dəyərləri modifikasiya edən bazar amillərindən qorunmaq üçün səhmdarlar kimi səhmlərin qoruyucu zirehinə ehtiyac duymurlar. Lakin maraqların dəyişməsi və inflyasiya digər istiqraz sahibləri kimi onlar üçün də təhlükəlidir. Yaşadığımız permanent inflyasiya dünyasında sərvətə dövlət qiymətli kağızları

formasında baxmaq və dəyişiklik törədən amillərinin təsirindən qiymətdən düşməyəcəyini güman etmək səfehlik olardı. Lakin bütün hallarda dövlət borcunun olması bazar amillərinin fəaliyyətinin nəticəsi deyil. Bu öz seçicilərini vergidən azad etmək siyasətçilərin əməlidir.

Bu məqalədə vurğuladığımız əsas fakt, yəni gözlənilməz dəyişikliklər dünyasında bazar amillərinin təsirindən maddi sərvətlərin yenidən bölüşdürülməsi adi müşahidənin məhsuludur. Bəs onda niyə bu fakt daim nəzərdən kənar qalır? Biz başa düşə bilərik niyə siyasətçilər bu faktı nəzərə almamağa üstünlük verirlər: Hər şeydən əvvəl onların seçicilərinin əksər hissəsi çətin ki bu təsirə məruz qalsın və hətta belə olduğu təqdirdə isə onlar bunu çətin ki dərk etsin. Lakin niyə iqtisadçılar da bu faktı hesaba almırlar? Bəziləri fikirləçə bilərlər ki, məhz maddi sərvətlərin bölüşdürülməsi üsulunun iqtisadi amillərin nəticəsi olması müddəası onları cəlb edir. Bəs onda niyə bir çox iqtisadçılar maddi sərvətlərin bölüşdürülməsinə "göstərici" ifadəsinin yuxarıda qeyd etdiyimiz ikinci mənasında yanaşmağa davam edirlər? Biz güman edirik ki, səbəbi tarazlıq problemləri ilə həddən artıq məşğul olmaqda axtarmaq lazımdır.

Biz əvvəldən gördük ki, sərvət bölgüsünün müvəffəqiyyətli üsulları tarazsızlıq dünyasına məxsusdur. Uzunmüddətli resurslar onlar üçün planlaşdırılmamış yollarla istifadə edildikdə gəlir və itkilərin yaranmasına səbəb olurlar və bəzi adamlar hansı dəyişikliklərin nəyə ehtiyacı olduğunu digərlərindən daha tez və daha yaxşı başa düdüklərindən, dünya resurslarını həmişə hərəkətdə olmasını təxmin edirlər. Tarazlıq planların ardıcıllığı deməkdir, lakin digər tərəfdən isə maddi sərvətlərin bölüşdürülməsi qeyri-ardicillığın nəticəsidir. Tarazlıq terminləri ilə fikirləşməyə təlimlənmiş adamlara təbii ki, təsvir etdiyimiz proseslər "hörmətsiz" görünə bilər. Onlar üçün "əsl" iqtisadi amillər tarazlığı yaradan və qoruyan faktorlardır. Qeyri-tarazlıq şəraitində isə fəaliyyət göstərən amillər onlar üçün maraqsızdır və tez-tez hesaba alınmırlar. Bu saymamazlığın iki səbəbi ola bilər. Şübhəsiz ki, reallıqda tarazlığa meyllər mövcuddur və hər hansı mümkün vəziyyətdə tarazlığa meyl edən qüvvələr müqvimət göstərənlərdən güclüdür.

Lakin şübhə etmək olar ki, ikinci güclü səbəb tarazlıqla işləmiş iqtisadçıların qeyri-tarazlıq qüvvələrinin öhdəsindən gələ bilməməsidir. Bütün nəzəriyyələr əlaqəli modellərdən faydalanmalıdır. Əgər bir nəfərin ixtiyarında bu cür yalnız bir model varsa və digər xeyirli fenomenlər bu model üçün yarasız olarlarsa, çox güman ki, onlar bəhrəsiz qalacaqlar. Sərvətlərin bölüşdürmə prosesi yaşadığımız dünyanın müəyyən xüsusiyyətlərini dərk etməyə bizə mane olduğundan, bu prosesin nəzərə alınmaması siyasi iqtisadiyyatda yalnız sadəcə uzağa gedən praktik əhəmiyyətə malik hadisə deyil. Bu həm də iqtisadi düşüncə mərkəzi üçün qiymətli metodoloji əhəmiyyət kəsb edir.

Əlbəttə, biz demirik ki, müasir iqtisadi tarazlıq qrammatikasına öyrənmiş bir şəxs bazar faktlarından o dərəcə xəbərsizdir ki, o, iqtisadi dəyişikliklərin öhdəsindən gəlməyə qadir, yaxud hazır deyil; bu absurd olardı. Biz deyirik ki, belə iqtisadçılar yalnız məhdud modellərə uyğun gələn dəyişikliklərlə məşğul olmağa qadirdirlər. Bir çox dəbdə olan ədəbiyyatda dəyişiklik dedikdə, bir tarazlıqdan digərinə keçmə (yəni müqayisəli iqtisadi statistika şərtləri altında) nəzərdə tutulur. Hətta bəzi iqtisadçılar Kasselin "eyniformalı proqressiv iqtisadiyyat" ideyasını tamamilə səhv başa düşərək, iqtisadi inkişafın başqa yolunu heç cür qavraya bilmirlər![4] Bir tarazlıqdan digərinə belə hamar keçid (istər gec, istərsə də tez) nəinki maraqlandığımız prosesin diskussiyasını, ümumiyyətlə bütün həqiqi iqtisadi proseslərin qarşısını alır. Çünki belə hamar keçid ancaq o yerlərdə baş verir ki, tarazlıq vəziyyəti orada tanışdır və orada yetişməsi gözlənilir. Harada belə deyilsə, nəticədə yeni tarazlıq pozisiyasına apara biləcək və ya bilməyəcək sınaq və səhvlər (Valras "sınaqları") başlayacaqdır. Lakin hətta yeni tarazlıq pozisiyasına aparmaq müyəssər olunduqda belə əldə olunan tarazlıq hamının əvvəlcədən gözlədiyi tarazlıq olmayacaq, belə ki, bu tarazlıq mövcud formaya çatanadək gəldiyi "yol"dakı hadisələrin məcmu nəticəsi olacaqdır. Bu hadisələr arasında sərvətlərin bölüşdürülməsindəki dəyişikliklər əsas yer tutur.

Professor Lindahl[5] bu yaxınlarda müxtəlif iqtisadi amilləri "Prokrust çarpayısına"[6] uzatmaqla qisamüddətli tarazlıq analizi ilə Keynesin analitik modelinin, onun aydın qətiliyi ilə, qeyri-düzgünlüyünü sübut etmişdir. Bir neçə dinamik gücün fəaliyyət üslubunu təsvir etmək istəyən Keynes öz modelini müştərək bərabərliklər sisteminin qəlibinə salmışdır, baxmayaraq ki, onun öyrəndiyi bu müxtəlif güclər müxtəlif uzunluq periouduna malik idilər. Burdan çıxan nəticə ondan ibarətdir ki, biz məsələn differensial biliklər, hadisənin mahiyyətini və ümumiyyətlə hadisələrin müvəqqəti mənzərəsini digərlərindən daha tez dərk edən insanlar kimi bazarın fundamental amillərini nəzərə almadıqda, biz qısa-müddətli tarazlıq şərtlərində "təcili" effektləri ifadə etməyə həvəslənəcəyik. Və sonra tezliklə biz özümüzə unutduracağıq ki, real iqtisadi marağa malik olan tarazlıqlar deyil, hətta onlar mövcud olsalar belə (hər halda bu da şübhəlidir), onların arasında gedən prosesləridir. "Bəzi məntiqli iqtisadçılar tərəfindən məhdudlaşdırıcı anlayış kimi istifadə edilən köməkçi uyğunlaşma termini"[7] düzgün istifadə edilmədikdə daha faciəli nəticələrə səbəb ola bilər.

Tarazlıqla məşğul olmaq sonda subyektlə obyekt, müşahidəçinin ağlı ilə müşahidə olunan iştirakçıların ağlı arasındakı dolaşıqlıqdan yaranır. Heç bir sistemli elm ardıcıl informasiyalar çərçivəsi olmadan mövcud deyil, lakin müşahidə etdiyimiz vəziyyətlər də çətin ki, bizə lazım olan hazır əlaqəli informasiyalar çərçivəsi tapaq. Bu, əksinə olaraq, analitik cəhdlər hesabına özümüzün həll edəcəyi tapşırıqdır. Ictimai elmlərdə elə vəziyyətlər mövcuddur ki, orada insanların bir-birinə qarşı hərəkətinin qeyri-ardıcıllığı və oradakı uyğunluğun, əgər varsa, agılın agıl ilə qarşılıqlı təsiri zamanı yaratdığı məhsul olması  həmin vəziyyətləri bizim üçün maraqlı edir. Bu məqalə həmin situasiyalardan birinin öyrənilməsinə həsr olunub. Biz qeyd etməyə çalışdıq ki, müəyyən əhəmiyyətə malik olan sosial fenomen ideyaların bir-birinə təsirini əks etdirən proses kimi təqdim edildikdə (əksinə olmamaq şərtilə), qavranıla bilər. Model-yaradanlar, ekonometriklər və digərləri təbii olaraq belə mövzulardan uzaq olmalıdırlar.

Çox ümid edirik ki, iqtisadçılar gələcəkdə hazır, lakin saxta modellər axtarmağa keçmişdə olduğundan daha az meyl göstərəcək və hərəkətdə olan bəşər zəkasının başlanğıcdan uyğunsuz situasiyalar kimi çıxış edə hallardan uyğunluluq yaradan müxtəlif üsullara böyük maraq göstərəcəklər.

**Qeydlər**:

---

[1] Aşağıda təqdim edilmiş arqumentlərin çoxu Professor Mizesin "*İqtisadiyyatın Epistemioloji Problemləri*" Nyu-York, D.Van Nostrand kitabından götürülmüşdür (New York: D. Van Nostrand, 1960),  217–31

[2] Wom Aktienvessen, 1917

[3] Bu izahın əlbəttə müəyyən sosial əhəmiyyəti var. Bunu qəbul edənlər çətin ki, sahibkarları öz var-dövləti olmayan insanlar üçün əlçatmaz sinif hesab edər. "Kapital Bazarın qeyri-mükəmməlliyini" hansı dərəcədə təsəvvür etsək belə bu nəticəni bizə verməyəcək.

[4] Belə model yaradıcılığının daha effektiv tənqidini görmək üçün bax: Coan Robinson "Genişlənən İqtisadiyyat Modeli" Economic Journal 62 (Mart 1952), 42-53

[5] Erik Zendal "Keynenin iqtisadi sisteminə dair" Economic Record 30 (May 1954) 19–32; 30 (Noyabr 1954), 159–71

[6] Tərcüməçi tərəfindən qeyd: "Prokrust çarpayısı" mecburi standartlardır ki, onlara uyğunluq süni sürətdə təmin edilir.

[7] Lüdviq fon Mizes, İnsan Fəaliyyəti (New Haven: Yale University Press 1949), 352